Azərbaycan Respublikası Maliyyə
Nazirliyinin 2009-cu il “13” yanvar
tarixli İ-05 nömrəli əmri ilə təsdiq
edilmişdir.

# Büdcə Təşkilatları üçün 10 №-li Milli Mühasibat Uçotu Standartı

# “Hiperinflyasiya Şəraitində Maliyyə Hesabatlari üzrə”



PDF created with pdfFactory trial version www.pdffactory.com

## Standartın təyinatı

1. Bu Standart «Mühasibat Uçotu haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırlanmış və "*Hiperinflyasiya şəraitində maliyyə hesabatları*" adlı İctimai Sektor üçün 10 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsaslanmışdır

## Məqsəd

2. Bu Standartın məqsədi hiperinflyasiya şəraitində maliyyə hesabatlarının təqdim edilməsi üçün qəbul olunacaq metodların müəyyən olunmasıdır

## Standartın tətbiqi sahəsi

3. Bu standart əməliyyat valyutası hiperinflyasiya şəraitində olan iqtisadiyyatın valyutası olan təşkilatın ilkin maliyyə hesabatlarına, o cümlədən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına tətbiq edilməlidir.

4. Təşkilat büdcə ilə müqayisəni asanlaşdırmaq məqsədilə büdcəyə dair müvafiq məlumatları özünün maliyyə hesabatlarına daxil edərsə, o zaman, sözügedən büdcə məlumatları da bu standarta uyğun olaraq yenidən təqdim edilməlidir.

5. Bu Standart inflyasiyanın hiperinflyasiyaya keçdiyi mütləq dərəcəni müəyyən etmir. Maliyyə hesabatlarının bu Standarta uyğun olaraq nə vaxt yenidən təqdim edilməli olduğunun müəyyən olunması subyektiv qərardır. Hiperinflyasiyanın mövcud olduğunu ölkənin iqtisadi şəraitinin xarakteristikaları göstərir. Bu xarakteristikalara digərləri ilə yanaşı aşağdakılar aiddir:
   - (a) əhali, ümumiyyətlə, vəsaitlərini qeyri-monetar aktivlərində və ya nisbətən möhkəm xarici vayutada saxlamağa üstünlük verir. Yerli valyutada olan pul məbləğləri, alıcılıq qabiliyyətinin saxlanması məqsədilə, dərhal investisiya olunur;
   - (b) əhali, ümumiyyətlə, pul məbləğlərini yerli valyutada deyil, nisbətən möhkəm xarici vayutada nəzərdən keçirir. Qiymətlər də həmin valyutada göstərilə bilər;
   - (c) kreditlə alış və satış əməliyyatları kreditin verildiyi müddət ərzində, hətta bu müddət qısa olsa da, gözlənilən alıcılıq qabiliyyətinin düşməsini kompensasiya edəcək qiymətlər əsasında həyata keçirilir;
   - (ç) faiz dərəcələri, əmək haqqları və qiymətlər qiymət indeksinə bağlıdır; və
   - (d) üç illik məcmu inflyasiya dərəcəsi 100%-ə yaxın və ya ondan artıqdır

6. . Hiperinflyasiya şəraitində olan eyni ölkənin valyutasında hesabat verən bütün büdcə təşkilatları bu Standartı eyni tarixdən tətbiq etməsi yaxşı olardı. Buna baxmayaraq, bu Standart, valyutasında hesabat verdiyi ölkədə hiperiflyasiyanın mövcud olduğunu göstərdiyi hesabat dövründən başlayaraq, istənilən büdcə təşkilatlarının maliyyə hesabatlarına tətbiq olunur

7. Bu standart büdcə təşkilatlarına, bələdiyyə orqanlarına və büdcədənkənar fondlara tətbiq edilir.



PDF created with pdfFactory trial version www.pdffactory.com

8. Mühasibat uçotunu tənzimləyən qüvvədə olan normativ-hüquqi aktlar ilə bu Milli Mühasibat Uçotu Standartı arasında ziddiyyət yarandığı halda, Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı tətbiq edilir.

## Əsas anlayışlar

9. Bu standartda istifadə edilmiş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:
***Aktivin balans dəyəri*** istənilən müvafiq toplanılmış amortizasiya və toplanılmış qiymətdəndüşmə xərcləri çıxıldıqdan sonra aktivin maliyyə durumuna dair hesabatda tanınan dəyəridir.

***Öhdəliyin balans dəyəri*** öhdəliyin maliyyə durumuna dair hesabatda tanınan dəyəridir

***Qeyri-monetar maddələr*** monetar olmayan maddələrdir

10. Digər Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarında müəyyən edilən şərtlər bu standartda digər standartlarda olduğu kimi eyni mənada işlədilir və ayrıca nəşr edilən Müəyyən Edilən Terminlər Lüğətinə daxil edilir.

### Maliyyə hesabatlarının yenidən təqdim olunması

11. 3-cü və 4-cü maddələrinə uyğun olaraq, bu Standart ilkin maliyyə hesabatlarını hiperinflyasiya şəraitində olan iqtisadiyyatın valyutası əsasında hazırlayan büdcə təşkilatlarının maliyyə hesabatlarına tətbiq edilir. Bu Standartda tələb olunan məlumatların yenidən tərtib olumayan maliyyə hesabatlarına əlavə olaraq təqdim olunmasına icazə verilmir. Bundan əlavə, maliyyə hesabatlarının yenidən tərtib olunmadan əvvəl ayrıca təqdim olunmasına yol verilmir.

12. Əməliyyat valyutası hiperinflyasiya iqtisadiyyatının valyutası olan büdcə təşkilatlarının maliyyə hesabatları hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə əks etdirilməlidir. "*Maliyyə hesabatlarının təqdim edilməsi*" adlı Büdcə Təşkilatları üçün 1 №-li Milli Mühasibat Uçotunun Standartında tələb olunan əvvəlki dövrlər üzrə müvafiq rəqəmlər və əvvəlki dövrlər ilə əlaqədar hər hansı məlumat həmçinin, hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə təqdim olunmalıdır. Müqayisəli məbləğlərin başqa təqdimat valyutasında əks etdirilməsi məqsədilə "*Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri*" adlı Büdcə Təşkilatları üçün 4 №-li Milli Mühasibat Uçotunun Standartının 37(b) və 38-ci maddələri tətbiq olunur.

13. Xalis monetar maddələr üzrə mənfəət və ya zərər maliyyə fəaliyyətinə dair hesabatda ayrıca olaraq açıqlanmalıdır

14. Maliyyə hesabatlarının bu Standarta uyğun olaraq yenidən təqdim olunması müəyyən prosedurların tətbiq olunmasını, o cümlədən subyektiv qərarlar tələb edir. Onların dövrlər üzrə ardıcıl tətbiqi, yenidən təqdim olunan maliyyə hesabatlarına daxil edilən son məbləğlərin dəqiqliyindən daha vacibdir.

## Maliyyə vəziyyətinə dair hesabat

15. Hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə əks etdirilməyən maliyyə durumuna dair hesabatın məbləğləri, onlara ümumi qiymət indeksi tətbiq olunmaqla düzəldilir.

16. Pul maddələrinə düzəliş edilmir, belə ki, onlar artıq hesabat tarixində qüvvədə olan pul vahidləri ilə əks etdirilmişdir.

17. İndeks ilə bağlı istiqrazlar və kreditlər kimi, razılaşma əsasında qiymət dəyişiklikləri ilə bağlı olan aktiv və öhdəliklərə, hesabat tarixində ödənməyən qalığın müəyyən olunması məqsədilə, razılaşmaya əsasən düzəliş edilir. Bu maddələr yenidən təqdim olunan maliyyə durumuna dair hesabatda düzəldilmiş məbləğləri ilə əks etdirilir



PDF created with pdfFactory trial version www.pdffactory.com

18. Bütün digər aktivlər və öhdəliklər qeyri-monetar maddələrdir. Bəzi qeyri-monetar maddələr, satışların mümkün xalis dəyəri və ya bazar dəyəri kimi hesabat tarixində olan məbləğləri ilə uçota alınır və bu səbəbdən onlara düzəliş edilmir. Bütün digər qeyri-monetar aktivlər və öhdəliklər yenidən təqdim olunur.

19. İlkin dəyəri və ya köhnəlmə çıxılmaqla ilkin dəyəri uçota alınan qeyri-monetar maddələr yenidən təqdim edilir. Hər maddə üzrə ilkin dəyərin və ya köhnəlmə çıxılmaqla ilkin dəyərin düzəldilmiş məbləği, onun ilkin dəyəri və yığılmış amortizasiyasının cəminə alış tarixindən hesabat tarixinə qədər qiymətlərin ümumi indeksində baş verən dəyişiklik məbləğinin tətbiq edilməsi ilə müəyyən edilir. Bu səbəbdən, torpaq, tikili və avadanlıqların, investisiyaların, xammal və mal ehtiyatlarının, qudvilin, patentlərin, ticarət markalarının və analoji aktivlərin dəyəri, onların alış tarixindən etibarən yenidən təqdim olunur. Hazır məhsul və qismən hazır məhsulun dəyəri alış və emal xərclərinin çəkildiyi tarixdən yenidən təqdim olunur.

20. Torpaq, tikili və avadanlıqların ayrı-ayrı obyektlərinin alış tarixi haqqında dəqiq məlumat mövcud olmaya, onların qiymətləndirilməsi isə mümkün olmaya bilmədiyi hallarda, adətən, bu Standartın tətbiqinin ilk mərhələsində, onların yenidən təqdim olunması üçün əsas kimi müstəqil peşəkar qiymətləndirmənin istifadə olunması tələb olunacaqdır.

21 Bu Standarta uyğun olaraq torpaq, tikili və avadanlıqların dəyərinin yenidən təqdim edilməli olduğu dövrlər üzrə qiymətlərin ümumi indeksi mövcud ola bilmədiyi hallarda adətən əməliyyat valyutası və nisbətən möhkəm xarici valyuta arasında məzənnə dəyişikliklərinə əsaslanan qiymətləndirmənin istifadə olunması tələb oluna bilər.

22. Qeyri-monetar maddələr, məsələn daha erkən tarixə yenidən qiymətləndirilən torpaq, tikili və avadanlıqlar alış və ya maliyyə durumuna dair hesabat tarixində qüvvədə olan məbləğlərdən fərqli məbləğlərlə uçota alındığı hallarda balans dəyəri yenidən qiymətləndirmə tarixindən yenidən təqdim olunur.

23. Qeyri-monetar maddənin yenidən təqdim edilmiş məbləğinin qiymətdən düşməsinin və azaldılması zərurətinin müəyyən edilməsi məqsədilə təşkilat "Qeyri -pul vəsaitləri yaradan aktivlərin qiymətdən düşməsi" adlı Büdcə Təşkilatları üçün 21 №-li Milli Mühasibat Uçotu Standartına və ya "Pul vəsaiti yaradan aktivlərin qiymətdən düşməsi" adlı Büdcə Təşkilatları üçün 26 №-lı Milli Mühasibat Uçotu Standartına uyğun olaraq müvafiq qiymətdəndüşmə testləri tətbiq edir. Bu səbəbdən, belə hallarda, torpaq, tikili və avadanlıqların, qudvilin, patentlərin və ticarət markalarının yenidən təqdim olunmuş məbləğləri bərpa edilən məbləğə qədər, mal-material ehtiyatlarının yenidən təqdim olunmuş məbləğləri satışların mümkün xalis dəyərinə qədər və qısa müddətli investisiyaların yenidən təqdim olunmuş məbləğləri bazar qiymətlərinə qədər azaldılır.

24. İştirak payı metoduna əsasən uçota alınan investisiya obyekti hesabatda hiperinflyasiya iqtisadiyyatının valyutası ilə təqdim oluna bilər. Bu investisiya obyektinin maliyyə durumuna və maliyyə vəziyyətinə dair hesabatı investorun onun xalis aktivlərində/kapitalda və əməliyyat nəticələrində payının hesablanması məqsədilə bu Standarta uyğun olaraq yenidən təqdim olunur. Investisiya obyektinin yenidən təqdim olunan maliyyə hesabatları xarici valyuta ilə əks etdirildikdə, onlar hesabat dövrünün sonuna olan məzənnəyə əsasən konvertasiya olunur.

25. İnflyasiyanın təsiri adətən borclar üzrə məsrəflərdə tanınır. Borc vəsaitləri ilə maliyyələşdirilən kapital xərclərinə düzəliş etmək və eyni zamanda borc vəsaitlərinin həmin dövr ərzində inflyasiyanı kompensasiya edən hissəsini kapitallaşdırmaq məqsədəuyğun deyil. Borc məsrəflərinin bu hissəsi, onların çəkildiyi dövrdə xərc kimi tanınır.

26. Təşkilatın aktivləri, əlavə faizlər hesablanmadan ödəmənin təxirə salınmasına yol verən anlaşma əsasında əldə edə bilər və faiz məbləğinin hesablanması məqsədəuyğun olmadığı hallarda, bu aktivlərin məbləği alış tarixindən deyil, ödəniş tarixindən etibarən yenidən təqdim olunur.



PDF created with pdfFactory trial version www.pdffactory.com

27. Bu Standartın ilk dəfə tətbiq edildiyi dövrün başlanğıcında, xalis aktivllərin/kapitalının komponentləri, toplanılan mənfəət/zərər və yenidən qiymətləndirmə üzrə ehtiyat istisna olmaqla, bu komponentlərin qoyulduğu və ya hər hansı digər yolla yarandığı müvafiq tarixlərdən ümumi qiymət indeksinin tətbiqi vasitəsilə yenidən təqdim olunur. Əvvəlki dövrlərdə yaranmış yenidən qiymətləndirmə üzrə hər hansı ehtiyat çıxarılır. Yenidən təqdim olunmuş toplanılan mənfəət/zərər yenidən təqdim olunan maliyyə durumuna dair hesabatın bütün digər məbləğləri əsasında müəyyən edilir

28. İlk dövrün sonunda və sonrakı dövrlərdə, kapitalın bütün komponentləri dövrün başlanğıcından və, əgər bu daha gec tarix olarsa, onların qoyuluduğu tarixdən ümumi qiymət indeksinin tətbiqi vasitəsilə yenidən təqdim olunur. Dövr ərzində kapitalda baş verən dəyişikliklər "Maliyyə hesabatlarının təqdim edilməsi" adlı Büdcə Təşkilatları üçün 1 №-li Milli Mühasibat Uçotunun Standartına uyğun olaraq açıqlanır.

## Maliyyə fəaliyyətinə dair hesabat

29. Bu Standart maliyyə fəaliyyətinə dair hesabatda bütün maddələrin hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə əks etdirilməsini tələb edir. Beləliklə, bütün məbləğlər gəlir və ya xərc maddəsinin ilkin olaraq qeydə alındığı tarixdən sonra ümumi qiymət indeksində baş verən dəyişikliklərin tətbiqi vasitəsilə yenidən təqdim olunmalıdır

## Xalis monetar maddələr üzrə mənfəət və zərər

30. İnflyasiya zamanı, pul aktivləri pul öhdəliklərindən artıq olan təşkilat alıcılıq qabiliyyətini itirir, pul öhdəlikləri pul aktivlərindən artıq olan təşkilat isə aktiv və öhdəliklərin qiymət səviyyəsinə bağlı olmadığı dərəcədə alıcılıq qabiliyyətini yüksəldir. Xalis monetar maddələr üzrə bu mənfəət və ya zərər qeyri-monetar maddələrin, toplanılan mənfəət və ya zərərin və maliyyə fəaliyyətinə dair hesabatın yenidən təqdim olunmasından və indeksə bağlı aktiv və öhdəliklərə düzəlişlərdən yaranan fərq kimi müəyyən edilir. Mənfəət və ya zərər, ümumi qiymət indeksində dəyişikliklərin dövr ərzində pul aktivləri ilə pul öhdəlikləri fərqinin orta çəkili məbləğinə tətbiqi vasitəsilə qiymətləndirilir.

31. Xalis monetar maddələr üzrə mənfəət və ya zərər maliyyə fəaliyyətinə dair hesabata daxil edilir. Razılaşmaya əsasən qiymət dəyişikliklərinə bağı olan aktiv və öhdəlik məbləğlərinə 17-ci maddəyə uyğun olaraq edilən düzəlişlər xalis monetar maddələr üzrə mənfəət və ya zərərə qarşı hesaba alınır. Faiz gəlirləri və xərcləri və investisiya olunan və ya borc alınan vəsaitlərlə əlaqədar məzənnə fərqləri kimi maliyyə fəaliyyətinə dair hesabatın digər maddələri həmçinin xalis pul maddələri ilə assosiasiya edilir. Baxmayaraq ki, belə maddələr ayrıca açıqlanır, onları xalis monetar maddələr üzrə mənfəət və ya zərər ilə birlikdə maliyyə fəaliyyətinə dair hesabatda göstərmək faydalı ola bilər.

## Pul vəsaitləri haqqında hesabat

32. Bu Standart pul vəsaitlərinin hərəkəti haqqında hesabatda bütün maddələrin hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə əks olunmasını tələb edir.

## Müvafiq rəqəmlər

33. Əvvəlki hesabat dövrü üzrə müvafiq rəqəmlər, onların ilkin dəyər və ya cari dəyərə əsaslanmasından asılı olmayaraq, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları hesabat dövrünün sonunda qüvvədə olan qiymətləndirmə vahidləri ilə təqdim olunacaq şəklində, ümumi qiymət indeksi tətbiq olunmaqla yenidən təqdim olunur. Daha erkən dövrlər üzrə açıqlanan məlumatlar həmçinin hesabat dövrünün sonunda qüvvədə olan qiymətləndirmə vahidləri ilə təqdim olunur. Müqayisəli məbləğlərin başqa təqdimat valyutasında əks etdirilməsi məqsədilə "*Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri*" adlı Büdcə Təşkilatları üçün 4 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartının 37(b) və 38-ci maddələri tətbiq olunur



PDF created with pdfFactory trial version www.pdffactory.com

## Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları

34. Maliyyə hesabatlarını hiperinflyasiya iqtisadiyyatının valyutasında təqdim edən nəzarət edən təşkilat həmçinin hiperinflyasiya iqtisadiyyatının valyutasında hesabat verən nəzarət edilən təşkilatlara malik ola bilər. Belə nəzarət edilən təşkilatların maliyyə hesabatları, nəzarət edən təşkilatın birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına daxil edilməkdən əvvəl, valyutasında hesabat verdiyi ölkənin ümumi qiymət indeksi tətbiq olunmaqla yenidən təqdim olunmalıdır. Bu nəzarət edilən təşkilat xarici təşkilat olduqda, onun yenidən təqdim olunmuş maliyyə hesabatları hesabat dövrünün sonuna olan məzənnəyə əsasən konvertasiya olunur. Hiperinflyasiya iqtisadiyyatının valyutasında təqdim edilməyən nəzarət edilən təşkilatların maliyyə hesabatları *"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri"* adlı Büdcə Təşkilatları üçün *4* №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq hazırlanır.

35. Müxtəlif hesabat tarixlərinə hazırlanan maliyyə hesabatları birləşdirildikdə, həm monetar, həm də qeyri-monetar maddələr, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının tərtib olunduğu tarixə qüvvədə olan qiymətləndirmə vahidlərinə keçirilməlidir.

## Ümumi qiymət indeksinin seçilməsi və istifadəsi

36. Maliyyə hesabatlarının bu Standarta uyğun olaraq yenidən təqdim olunması ümumi alıcılıq qabiliyyətində dəyişiklikləri əks etdirən ümumi qiymət indeksinin istifadə olunmasını tələb edir. Eyni ölkənin valyutasında hesabat verən bütün büdcə təşkilatları eyni qiymət indeksini tətbiq etməsi yaxşı olardı.

## Hiperinflyasiya şəraitindən çıxan iqtisadiyyat

37. İqtisadiyyat hiperinflyasiya şəraitindən çıxdıqda və təşkilat bu Standarta uyğun olaraq tərtib olunmuş maliyyə hesabatlarının hazırlanmasını və təqdimatını dayandırdıqda, əvvəlki hesabat dövrünün sonuna qüvvədə olan qiymətləndirmə vahidləri ilə əks olunan məbləğləri sonrakı maliyyə hesabatlarında balans məbləğləri üçün əsas kimi istifadə etməlidir.

## Məlumatın açıqlanması

38. Aşağdakı məlumatlar açıqlanmalıdır:

(a) maliyyə hesabatlarının və əvvəlki dövrlər üzrə müvafiq rəqəmlərin, əməliyyat valyutasının ümumi alıcılıq qabiliyyətində dəyişikliklər nəzərə alınmaqla, yenidən hesablandığı və beləliklə hesabat tarixində qüvvədə olan qiymətləndirmə vahidləri ilə təqdim olunduğu faktı; və

(b) hesabat tarixində qiymət indeksinin adını və səviyyəsini və cari və əvvəlki hesabat dövrləri ərzində indeksdə baş verən dəyişikliklər.

## Qüvvəyə minmə tarixi

39. Bu standartın qüvvəyə minmə tarixi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq əmri ilə müəyyən edilir

40. Əgər təşkilat Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotunun Standartında qeyd edildiyi kimi maliyyə hesabatı məqsədilə mühasibat uçotunun hesablama metodunu qəbul edərsə, yuxarıda qeyd edilən hüquqi qüvvəyəminmə tarixindən sonra standart təsərrüfat vahidinin qəbul tarixi və ondan sonrakı dövr üçün illik maliyyə hesabatına tətbiq ediləcəkdir



PDF created with pdfFactory trial version www.pdffactory.com